# Dramatizm və emosionallıq

*Ötən saylarımızda cari ildə yubileylərini qeyd etdiyimiz sənətkarlarımız haqqında ətraflı məlumat vermişdik. Onlarla bağlı söhbətimizi bundan sonra da davam etdirəcəyik.*

Yubilyarlar arasında anadan olmasının 100 illiyi respublikanın bütün rayon və şəhərlərində yüksək şəkildə qeyd edilən görkəmli aktyor, SSRİ xalq artisti, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı İsmayıl Dağıstanlının xüsusi yeri var.

Çoxumuz onu məhz Dağıstanlı təxəllüsü ilə tanıyırıq. Əslində isə soyadı Hacıyevdir.

İsmayıl Yusif oğlu Hacıyev 1907-ci il yanvarın 6-da Qax rayonunun Zərnə kəndində anadan olmuşdur. Səhnə fəaliyyətinə 18 yaşında ikən 1925-ci ildə Şəki mərkəzi fəhlə-kəndli klubu nəzdindəki dram cəmiyyətində başlamışdır.

1926-1930-cu illərdə Bakı Teatr Texnikumunda oxumuş, 1927-ci ildən eyni zamanda Azərbaycan Dövlət Dram Teatrında təcrübəçi aktyor kimi kütləvi səhnələrdə çıxış etmişdir.

1930-cu ildən fasilələrlə Azərbaycan Dövlət Dram Teatrında, 1936-1937-ci illərdə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında çıxış etmiş, 1932-1933-cü illərdə Dərbənddə təşkil etdiyi Azərbaycan teatrının rejissoru və aktyoru olmuşdur.

1938-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Dram Teatrında çalışmışdır. Qorxmaz (C.Cabbarlı – «Od gəlini»), Noratsio (V.Şekspir – «Hamlet»), Karlos (M.İbrahimov – «Madrid»), Xanlar, Vaqif (S.Vurğun – «Xanlar», «Vaqif»), Otello (V.Şekspir – «Otello»), Astrov (A.Çexov – «Vanya dayı»), Bəhram şah (M.Hüseyn - «Cavanşir»), Böyük bəy (İ.Əfəndiyev – «Mahnı dağlarda qaldı»), prezident (F.Şiller – «Məkr və məhəbbət») və s. rolların ifaçısı olmuşdur.

İ.Dağıstanlının ifasında o vaxtkı partiya və dövlət rəhbərlərinin (V.İ.Lenin, N.Nərimanov, S.M.Kirov və b.) obrazları da maraqlı yaradılmışdır.

H.Ərəblinski, A.M.Şərifzadə ənənələrinin davamçılarından olan İ.Dağıstanlıda aktyor oyunu üçün yüksək temperament, dramatizm, emosionallıq səciyyəvidir.

Azərbaycan İncəsənət İnstitutunda (ADMİU) 1977-ci ildən səhnə danışığı kafedrasının müəllimi olmuşdur.

İ.Dağıstanlı Azərbaycan kinosunda da məhsuldar fəaliyyət göstərmişdir. O, «Səbuhi» (1942), «Sualtı qayıq T-9» (1943), «Qara daşlar» (1958), «Kölgələr sürünür» (1959) və s. filmlərə çəkilmişdir.

**TURAL**